# General-mayorun doğum günü



1806-cı ildə yanvarın 27- də doğuldu, gözəl bir gündə, Qurban bayramı idi. Adını İsmayıl qoydu atası Nəsrulla sultan. Gözəl bir ailənin, soltan ailəsinin 5-ci oğlan övladı dünyaya gəldi. Qoyunlar kəsildi, fağır-füqarəyə paylandı. İsmayıl böyüyürdü...

Birdən hər şey dəyişdi. Çar Rusiyası Azərbaycanı işğal etdi. İsmayıl bu işğalın qurbanına çevrildi. 10 yaşı tamam olmamış onu anasından, doğmalarından, dostlarından ayıraraq Peterburqa apardılar. 30 il vətəndən, dilindən, dinindən uzaqda yaşadı. Azərbaycana ilk Azərbaycanlı olan general-mayor rütbəsi ilə qayıtdı.

Bu gün İsmayıl bəy Qutqaşınlının ad günüdür. Bununla əlaqədar "Qəbələnin səsi" ədəbi yazarlar birliyi və "Qəbələ yazarlarına dəstək" ictimai birliyinin üzvləri, rayon ziyalıları muzeyimizə gəlmiş, general İ. B. Qutqaşınlının məzarını ziyarət etmiş, onun yaradıcılığı və fəaliyyəti ilə bağlı söhbət-diskussiya aparmışlar. Xatirə ev-muzeyi Qəbələ ziyalıları ilə dolub boşalır. Onun doğum gününü yada salaraq bu qarda, soyuqda muzeyimizə gələrək xatirəsini ehtiramla yad edirlər.

Qədirbilən xalqıma təşəkkür edirəm.

**Çimnaz MÜZƏFFƏROVA,**
**İ. B. Qutqaşınlı xatirə**
**ev-muzeyinin direktoru.**

# Heç kəs unudulmur



26 yanvar şəhid Qoşqar Üzeyirovun cənnətdəki doğum günüdür. Bu münasibətlə şəhidin məzarı ziyarət olunmuş, üzərinə gül dəstələri qoyulmuş, ruhuna dualar oxunmuşdur.

Qoşqar Müşfiq oğlu Üzeyirov 2002-ci ildə Soltannuxa kəndində anadan olub. Orta təhsilini Elsevər Kərimoğlu adına Soltannuxa tam orta məktəbində alıb. 2020-ci il yanvar ayında həqiqi hərbi xidmətə gedib. 2020-ci il 27 sentyabrda başlanan Vətən Müharibəsində iştirak edib. 7 noyabrda Xocavənd rayonu ərazisində gedən döyüşlərdə şəhidlik məqamına ucalıb. 21 noyabr 2020-ci ildə Qəbələ rayonu Soltannuxa kənd qəbristanlığında torpağa tapşırılıb. Qoşqar zəfər tarixini yenidən yazan bir igid kimi əbədi olaraq ürəklərdə yaşayır və yaşayacaq!

Allah cəmi şəhidlərimizə rəhmət etsin.

**Şəhla XƏLİLQIZI,**
**"Qəbələ səsi"nin**
**ştatdankənar müxbiri.**

# Qanla yazılan tarix

20 Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar Qəbələ rayon Heydər Əliyev Mərkəzi, Qəbələ UADM və MKS-nin şəhər 2 saylı kitabxana filialının birgə təşkilatçılığı ilə "20 Yanvar faciəsi Azərbaycana qarşı bəşəri cinayətdir" adlı tədbir keçirilib. Tədbirdə əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Çıxışlarda 1990-cı ilin 20 Yanvar faciəsinin Azərbaycanın tarixinə təkcə bir faciə günü kimi deyil, həm də xalqımızın istiqlaliyyət əzminin, sarsılmaz iradəsinin sübutu, dövlət müstəqilliyinin bərpa edilməsinə doğru aparan yol, milli qürur doğuran bir gün kimi həkk olunduğu vurğulanmış, xalq üçün, millət üçün canlarını fəda edən qəhrəman oğul və qızlarımızın xatirəsinin daim uca tutulduğu diqqətə çatdırılmışdır. Sonda 20 Yanvar faciəsinə həsr olunan kitab və fotoşəkillərdən ibarət sərgiyə baxış keçirilmiş və videoçarx nümayiş olunmuşdur



# İnci üzə çıxarmı çalxalanmasa ümman...

**Nakam arzuları düşünəndə**

İnsan var ki, dərdini-qəmini, qarşılaşdığı problem və çətinlikləri gizlədə bilir. Bəzən məntiqi düşüncəsi güclü olan kəslər bu gizliliyi duyur və bilir, hiss edirlər. Bu böyük "bacarıqdır". Ancaq insan da var ki, hay-küylə, hər kəlməsiylə əhval-ruhiyyəsini, dərd-sərini bəyan edər. Fəqət bir qrup insan var ki, özünü nə qədər dəyanətli, iradəli aparsa belə onun simasından, ən adi hərəkətlərindən belə hətta tanımadığı biri olsa da qəm yükünü görür, duyur və hiss edirsən. Həm də elə qəm "yükü" var ki, o, ölçüyəgəlməz dərəcədədir... Bu isə insana ilk baxışından, ilk kəlməsindən aydın olur.



Dərdin, kədərin insanın dərisinə belə hopduğunu görmək olarmı? Dərinin məsamələri belə bəzən hayqırır... Bu övlad acısıdır...

Şəhid adı nə qədər ucalığı simvolizə edirsə etsin, nə qədər qürur və vüqar hissi bəxş edirsə etsin onun valideynlərinin yarası "qaysaq" bağlamaz. Mənalı bir ölüm qisməti sayılsa da şəhid valideynlərinin duyğularında bir şərəf, şöhrət hissi yaransa da, övlad itkisi ürəklərinin hər döyüntüsündə acıları onlara yaşadır. Nakam arzulu can parçasının sevdiyi hər şey - yeməkdən tutmuş, geyimə qədər daima onların gözləri önündə. Onların ölümünə inanmazlar valideynləri, süfrə başında yerlərini, sevdikləri yeməklərdən payını saxlarlar. Çox zaman o yeməkləri bişirməz, yeməzlər...

Həyatda onların yarım qalmış arzularını qismən də olsa həyata keçirmək üçün yaşayarlar. Şəhidlər unudulduğu zaman ölərlər! Valideyinləri də təkrar övlad acısını hər an yaşaya-yaşaya dünyasını dəyişərlər. Məhz buna görə də unutqanlıq hər bir vicdanlı kəsə, vətənpərvər insana yad olmalıdır.

Şəhidlər şəhadətə qovuşarkən onların yadigarları - övladları varsa, nə qədər acı olsa da; həm maddi, həm mənəvi acılarla böyüsələr də, atalarının igidliyindən güc alarlar. Ancaq qəlbində sevgisini özü ilə bərabər əbədiyyətə gömən və nişanlı olan, sevdiyi qızı isə tanıyan ata-anaların qəm yükü daha çox... Həm sevilən o Azərbaycan gözəllərinə yazıq... həm də onların nə vaxtsa hansısa evə gəlin köçəcəyini düşünən valideynlərə yazıq... Övlad acısının ən pik nöqtələrindən biridir bu düşüncə...

Ömrü bahar igidlərdən biri də İkram ata, Zeynəb ananın övladı Adəm Heydərovdur. Adəmi əsgərliyə - həqiqi hərbi xidmətə yola salanda hər bir valideyn kimi ürəkləri min arzu-diləklə dolu idi ata-ananın. İnsanı arzular yaşadır; bir-birindən doğulan arzular. O zaman ata da, ana da övladlarını gülər üzlə, nikbin əhval-ruhiyyə ilə yola salmışdı, simalarında zəhmət izləri görünsə də gənc idilər və övladlarını "kişilik məktəbinə" göndərməyin də sevincini yaşayırdılar. Həyəcanlı olsalar belə əsgər valideyni olmasının sevincini yaşayırdılar. Bilirdilər ki, tərbiyə edib, böyütdükləri övlad onların başını hər yerdə uca tutacaqdı.

Atanın baxışları oğluna dikildi, izlədi o baxışlarla oğlunu, onun gülüşünü, ayrılıq həsrətli gizli baxışlarını gördüsə də hiss etdirmək istəmədi. Dünyanın, həyatın gözəl olduğunu ona hiss etdirmək istədi xoş sözlərilə... Xeyirli gəl, xidmətini xeyirlə başa vur; həyat, yaşamaq hələ irəlidədir, dünya gözəl, gənclik gözəldi. Məmməd Araz misraları yadıma düşdü:

***Dumanların çağrışına yar olma***
***Tufanların qəzəbinə tor olma,***
***Yoxuşunda ayaq saxla, yorulma;***
***Səndən əzəl, məndən əzəl dünyadı,***
***Dünya gözəl, dünya gözəl dünyadı.***

Elə ata baxışları ilə oğluna bu kəlamları ötürürmüş... Axı bu misralar da bir ata öyüdü...

Oğul əsgər getdi... Onu xoş əhvalla yollasa da, valideyn üçün həmişə körpə kimi düşünülən övladının əsgər formasında daha yaraşıqlı, qorxmaz, mərdanə görünüşünü çox sevdilər, fəxr etdilər. Adəm də çox sevmişdi bu geyim formasını. Andiçmə mərasimində də verdiyi anda sadiq olacağı onun baxışlarından və sevinc dolu hərəkətlərindən sezilmişdi.

**Ana düşüncələri**

Adəmin anası Zeynəb mələk üzlü bir xanımdır. Qəlbinin paklığı onun simasına qonmuşdu sanki. Hər bir ana kimi övladına sevgisi sonsuz idi. Adəm isə özünəməxsus xarakterə malik idi. Düşüncə tərzi ilə fərqlənirdi. Qəlbində öz həyatı - yaşaması üçün, gələcək həyatına davam etmək üçün düzənli arzuları var idi. Ən birinci arzusu əsgəri xidmətini ləyaqətlə başa vurmaq, Vətənə layiqli övlad kimi yetişmək idi. Ananın isə Adəmlə bağlı arzuları, şirin xəyalları qəlbində sırası ilə yığın-yığın idi. Hərbi xidmətdən qayıdan sonra öz həyətlərində edəcəyi şadyanalıq məclisindən tutmuş, onun övladlarını belə sevə-sevə əzizləyəcəyini düşünürdü...

Əsgəri xidmətə yola saldıqdan sonra oğlunun ayrılığının "həsrətini" çəkərək gecə-gündüz duaçı olurdu Tanrıya. Onun xidmət işinin uğurlu olmasına görə, sağ-salamat evinə qayıtsın deyə... Ancaq, gərdişin onun üçün qarşıda hansı sürprizləri olduğundan xəbərsiz idi...

**Adına layiq övlad**

Adəm Heydərovlar ailəsinin üçüncü övladı idi. Ailədə ondan yaşca böyük Asiman adlı qız, İspəndiyar adlı oğul övladı böyüyürdü. Asiman 1992, İspəndiyar isə 1993-cü il təvəllüdlü idilər. Adəm qardaşından 7 yaş kiçik idi. Yaşca kiçik olsa da Adəm həmişə özündən yaşca böyük olan uşaqlarla dost olmağı xoşlardı. Ən yaxın dostu isə ailə üzvləri idi.

Adəm adının mənasını bilirdi və buna görə də ta uşaqlıqdan qohum-qonşu arasında ağıl və düşüncə tərzi ilə fərqlənirdi. Adəm adı nə deməkdi? Adəm adı "ilk insan", "bəşəriyyətin atası" və "torpaqdan yaradılan" kimi mənaları daşıyır. İbrani dilində (bu yəhudi dilidir) "Adama" sözü torpaq və insan anlamına gəlir. Bu ad həmişə insanın təbiətə və yaradılışa bağlılığını simvolizə edir. Bu adın özəlliyi ondadır ki, yəhudi, xristian və müsəlman mədəniyyətlərində ortaq simvol olaraq çıxış edir. Adəm adı müxtəlif toplumlarda hörmət və dəyər rəmzi kimi qəbul edilir. Adəm kimi güclü və simvolik adlar uşaqlarda özünəinam hissini gücləndirir. Adəm "bəşəriyyətin atası"mənasını da simvolizə edir. İkram və Zeynəb Heydərovlar da bu adı seçməkdə heç də yanılmamışlar. Bu Adəmin həyat xronikasında daha aydın şəkildə özünü biruzə verdi.

Adəm Heydərov 2000-ci il martın 26-da qədim Qəbələnin Bum qəsəbəsində anadan olmuşdur. Orta təhsilini 2006-2017 - ci illərdə Təbriz Yaqubov adına Bum qəsəbə orta məktəbində almışdır. 2018-ci ildə həqiqi hərbi xidmətə yollanmışdır. Xidmət etdiyi dövrdə hərbi hissənin nizam-intizamına nümunəvi şəkildə riayət etmiş, verilən tapşırıqları vaxtında yerinə yetirmişdir. Buna görə də hərbi hissə ona bir həftəlik məzuniyyət vermişdir. Onun məzuniyyəti dövründə (2018-ci il oktyabr) ailənin böyük oğlu İspəndiyarın nişan mərasimi keçirilmişdir, o da bu mərasimdə iştirak etmişdir. Həmçinin 2019-cu ilin mart ayında qardaşının toy məclisində də ona nümunəvi xidmət etdiyi üçün məzuniyyət verilmiş və Adəm qohum-qonşularına, dostlarına sürpriz olaraq bu məclisdə də iştirak etmişdir. Bu isə ata və anaya ən sevincli anlar nəsib etmişdir. Əsgəri xidmətdə olduğu 1 il 6 ayda ailəsi ilə daima əlaqə saxlayardı...

Ordu sıralarından tərxis olduqdan sonra doğma qəsəbəsinə qayıtdı... Hələ əsgəri xidmətdə olduğu dövrdə Adəm sərhəd zonalarında baş verən hadisələrlə bağlı müharibənin labüdlüyünü hiss edirdi. O, ordumuzda gedən təlim prossesinin gücləndirilməsini görür və özlüyündə hər an özünü də mənən döyüşə hazırlayırdı. Torpaqlarımızın düşmən tapdağında, işğalda olması, erməni qəsbkarlarının danışıq və ölkəmizin siyasətinə zidd hərəkətləri xalqın və ölkə rəhbərliyinin siyasətini bəyənən bir gənc kimi onun da səbrini daşdırırdı.

2020-ci ilin iyul - Tovuz hadisələri və bu terror zamanı general-mayor Polad Həşimovun, həmçinin bir qrup hərbçimizin şəhadəti ona da təsir etmiş və onda intiqam hissini gücləndirmişdi. Ali Baş Komandanın müraciət etməsindən əvvəl vətənpərvər gənclərə qoşularaq könüllülərə qoşularaq hərbi komissarlığa müraciət etmişdi. 2020-ci ildə sentyabr ayında komandanımız xalqa müraciət edərkən Adəm çox sevindi. Sevindi ki, igid şəhidlərimizin qisası alınacaq...

Sentyabrın 29-na ona çağırış vəsiqəsi göndərilmişdi. Anası min bir həyəcanla onu yola saldı doğma evindən. Atası və qardaşı hərbi komissarlığa gəldi və oraya toplaşan gənclərlə birgə Adəmi müharibə zonasına yola saldı. İkram Heydərov oğlunun qərarlarında qətiyyətli olduğunu bilirdi. Ona görə də ataya xeyir - dua vermək qalırdı.

Adəm əsasən Tərtər zonasında ağır döyüşlərdə oldu. Ağdərə uğrunda gedən döyüşlərdə igidliklə döyüşürdü. Ailəsi ilə hər gün saat 11 - 12 radələrində telefonla danışar, onları intizarda qoymazdı. Bilirdi ki, ailəsi ondan nigaran qalacaq, həmçinin hər gün ana və atasının səsini eşitmək istəyirdi. Hamı kimi o

**(Ardı 7-ci səhifədə).**